## YUBİLYARLARIMIZ

## AKADEMİK BƏKİR NƏBİYEV - 80

**AZAD NƏBİYEV**
**AMEA-nın müxbir üzvü**

# KAMALIN QÜDRƏTİ, ZƏHMƏTİN FƏRƏHİ

M.F. Axundovla başlayan Azərbaycan ictimai-siyasi və ədəbi, elmi-nəzəri fikri Şərq mədəniyyəti içərisində ümumazərbaycan mədəniyyətinin yerini dürüstləşdirməklə yanaşı, onun meydana gəlmə dövrü, tarixi, mövzu –məzmun zənginliyi, eləcə də etik-estetik mahiyyəti və bədii siqləti barədə mükəmməl elmi baxışlar formalaşdırdı.

Sonrakı mərhələdə milli tarix, mədəniyyət və elmimizin yeni öyrənilmə istiqamət və ənənələri meydana çıxdı ki, uzun tarixi zaman kəsimində onların açıqlanması elmi-nəzəri fikrin gündəmindən düşmədi.

XX yüzilliyin başlanğıcında ölkədə milli mədəniyyətin, demokratik dəyərlərin, məfkurə baxışlarının öyrənilməsi özünün inkişaf etmiş yeni mərhələsinə yüksəldi. Tərəqqiyə, mədəni yüksəlişə, bütövlükdə məfkurə dəyərlərinə fərqli yanaşmalar meydana çıxdı. Cəlil Məmmədquluzadənin başçılıq etdiyi mollanəsrəddinçilərlə Əli bəy Hüseynzadənin ardıcılları olan füyüzatçılar arasında milli mədəniyyətlərə yanaşma məsələsində mahiyyətcə eyni, məzmunca fərqli, məfkurə baxışları üzə çıxdı. İki qüdrətli dünyagörüşün qarşılaşması əslində ölkədə demokratik hərəkatın və yeni qabaqcıl ədəbi-elmi nəzəri fikrin formalaşmasına əsaslı təkan verdi, milli ədəbiyyat və mədəniyyət həyatının aktual problemlərinin öyrənilməsinə başlandı.

Ədəbiyyat tariximizin, mədəniyyət və incəsənətimizin ən vacib məsələləri, xüsusilə, onların müstəqil yaradıcılıq sahələri kimi formalaşması, dövrləşdirilməsi, ədəbi istiqamətlər, meyillər və cərəyanlar, ədəbi məktəblər, ədəbiyyatın sənətkarlıq, dil və üslub məsələləri, Azərbaycan dilinin saflığı, təmizliyi kimi milli tərəqqi üçün taleyüklü məsələlər dövrün demokratik mətbuatı səhifələrində qızğın müzakirə obyekti oldu. Bu diskussiyaların təşəbbüskarı və müəllifi olan onlarla dəyərli nəzəriyyəçilərin, tənqidçilərin və ziyalıların adı bu gün böyük ehtiramla xatırlanır və haqlı olaraq onlar ədəbi-elmi nəzəri fikrimizin yeni dövr yaradıcıları hesab edilirlər. Bütövlükdə onların həyat və fəaliyyəti zamanın çətin bir dövrünə, keşməkeşli çağlara təsadüf etsə də, ideyalarına görə böyük məhrumiyyətlərlə üzləşsələr də, bir çoxu ömrünü mühacirətdə, vətən həsrəti ilə başa vursa da, əslində öz sələfləri kimi onlar da xoşbəxtdirlər. Çünki milli kimlik və milli məfkurə sahəsində başlanan böyük işi ləyaqət və cəsarətlə yaşadaraq sonrakı nəsillərə ötürə bildilər. Firudin bəy Köçərli ilə başlayıb Üzeyir bəy Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli və başqa ziyalılar tərəfindən davam etdirilən bu tədqiqat istiqaməti daim artan xətt üzrə yüksəlişdə oldu. Ancaq ötən yüzilliyin başlanğıcında bu davamçıların mübarizə yolu da elə asan və rəvan olmadı. Müharibələrin, inqilabların, çevriliş, qarşıdurma, qadağa, yasaqların hökm sürdüyü bu dövrdə və eləcə də repressiyaların tüğyan etdiyi sonrakı sovetlər dönəmindəki ağır ideoloji qarşıdurmalar mərhələsinin məhrumiyyətlərini yaşayan böyük bir ziyalı nəslinin həyatına son qoyuldu. Bəkir Çobanzadələr, Əmin Abidlər, Əli Nazimlər, Salman Mümtazlar, Hənəfi Zeynallılar və onlarla başqaları repressiyaların qurbanına çevrildi. Ancaq elmi-nəzəri fikrin araşdırılmasının arası kəsilmədi, sırası pozulmadı, onların yeni nəsl davamçıları yetişdi, və ənənələr layiqincə davam etdirildi.

Bu dövrdə nəzəri fikrin inkişafını istiqamətləndirən Mir Cəlalın, Mirzə Feyzullanın, Mehdi Hüseynin, Cəfər Xəndanın, Mirzağa Quluzadənin, Həmid Araslının, Kamal Talıbzadənin, Məmməd Cəfərin, Əziz Mirəhmədovun və başqalarının adları bu gün xüsusi minnətdarlıqla xatırlanır.

Bu işıqlı insanların sırasında haqlı olaraq XX yüzilliyin 50-ci illərindən başlayaraq günümüzə qədər milli ədəbiyyatşünaslıq və ədəbi-tənqidimizin sıralarında öz qüdrətli kamalı, milli mədəniyyətimizə intəhasız sevgisi, dərin məntiqi, iti qələmi, insanlara səmimi, isti insani münasibəti və bir də yüksək fitri istedadı ilə müasirlərinin məhəbbətini qazanan və xalqımızın anadan olmasının 80 illik yubileyini təntənə ilə qeyd etməyə hazırlaşdığı akademik Bəkir Nəbiyevin özünəməxsus layiqli yeri və çəkisi vardır. Akademik Bəkir Nəbiyev ötən onilliklər ərzində milli ədəbiyyatşünaslıq və ədəbi tənqidimizin inkişafına və yüksəlişinə, ədəbi və elmi-nəzəri fikrin istiqamətləndirilməsinə, klassik və müasir irsimizin dəyərləndirilməsinə mənalı ömrünün əlli ildən artıq bir dövrünü həsr etmişdir.

Bəkir Nəbiyev 1930-cu ilin qaynar yay günlərində – avqustun 21-də Ağdaş bölgəsinin gözəl təbiətli Üçqovaq kəndində anadan olmuşdur. 1947-ci ildə Ağdaş şəhər orta məktəbini bitirmişdir. Uşaqlığı, ilk gəncliyi repressiyalar dövrünə və ağır müharibə illərinə düşmüş, atası ağzıdualı Əhməd kişi əsassız olaraq repressiya qurbanı olmuşdur. Ancaq ailənin üzləşdiyi bütün məhrumiyyət və maddi çətinliklər balaca Bəkirin möhkəm iradəsini sındıra bilməmiş, o, hələ çox gənc ikən, orta məktəbdə oxuduğu illərdən ailənin çətinliklərini üzərinə götürmüş, şagird ikən yerli radioda diktor vəzifəsində çalışmış, sonra isə yeddiillik məktəbdə iki il Azərbaycan dili və ədəbiyyatı müəllimi vəzifəsində işləmişdir. Orta təhsilini başa vurduqdan sonra Bakıya ali təhsil almağa gəlmiş, elə həmin ildə tələbə adını

qazanmışdır. Az sonra onun imzası dövrün mətbuatında tez-tez görünməyə başlamışdı. Bəkir Nəçbiyev öz istedadı ilə şöhrətlənmiş, qələmi ilə özünə yol açmış, nüfuz qazanmışdır. 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra «Azərbaycan gəncləri» qəzetinə təyinat almış, burada ilk dəyərli ədəbi-tənqidi yazıları ilə tanınmışdır. Sonrakı illərdə «İnşaatçı», «Kommunist» qəzetləri redaksiyalarında ədəbi işçi, tərcüməçi, mədəniyyət şöbəsinin müdiri vəzifələrində çalışmışdır. O, çox gənc yaşlarında Yazıçılar Birliyinin (1958) və Jurnaplistlər Birliyinin (1960) üzvlüyünə qəbul edilmiş və ədəbi prosesin inkişaf məsələlərini daha ardıcıllıqla izləmişdir. 1961-ci ildə, namizədlik dissertasiyasını müdafiə etdikdən sonra mətbuat orqanlarına yüksək vəzifələrə dəvət edilsə də, şöhrət arxasınca qaçmamış, öz taleyini Azərbaycan Milli Elmlər Akademiyası ilə bağlamış və burada vəzifə pillərində yüksəlməklə ədəbiyyatşünaslığın və ədəbi-tənqidin ən mühüm problemləri ilə ardıcıl məşğul olmağa başlamışdır. O, müxtəlif illərdə Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi, aparıcı elmi işçi, şöbə müdiri vəzifələrində çalışmış, uzun illər Nizami adına Ədəbiyyat Muzeyinin direktoru olmuşdur. 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzv (akademik) seçilmişdir. 1987-ci ildən 2001-ci ilədək Elmlər Akademiyasında Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik katibi vəzifəsində səmərəli fəaliyyət göstərmişdir. Çoxsaylı ictimai vəzifələr daşıyan akademik Bəkir Nəbiyev 2003-cü ildən Nizami adına Ədəbiyyat İnstitutunun direktorudur.

Akademik Bəkir Nəbiyev Azərbaycan mədəniyyətini geniş ölçülərdə və qəliblərdə dünyaya təqdim edən türk dünyasının şöhrətli elm xadimlərindəndir. O, dünya ölkələrində keçirilən bir çox konqress və simpoziumlarda Azərbaycan elmi-

nin ən layiqli təmsilçilərindən biri kimi tanınır. Beynəlxalq tribunalardan onun «Kitabi-Dədə Qorqud», Nizami, Nəsimi, Füzuli, eləcə də milli ədəbiyyatımızın bir çox başqa mühüm problemləri barədə dərin elmi faktlara söykənərək şaqraq səslə söylədiyi məruzə və çıxışlarında qoyulan elmi mülahizəçlər vətəndaş alimin milli ədəbi irsimiz və ədəbi qaynaqlarımız barədə dünya xalqlarına ünvanlanmış təkcə şəxsi elmi mülahizələri yox, eyni zamanda Azərbaycan elminə məxsus nəzəri yanaşmalardır.

Əllidən artıq monoqrafiyanın, 1000-dən çox ədəbi-tənqidi məqalə və resenziyanın müəllifi olan, özünün şöhrətli ədəbiyyatşünaslıq və ədəbi-tənqid məktəbini yaradan akademik Bəkir Nəbiyev həm də sabahımıza ünvanlanmış yeni-yeni layihələrin, ədəbiyyatımızın dünəni, bu günü və sabahı ilə bağlı dəyərli tədqiqat işlərinin müəllifi, naşiri və redaktorudur. Onlardan bir neçəsini xatırlatmaq təbii ki, yerinə düşərdi. Bu layihələrdən ən mühümü AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda Bəkir Nəbiyevin müəllifliyi və redaktorluğu ilə artıq bir neçə cildi işıq üzü görmüş, qalan cildlərinin isə nəşrə hazırlığı başa çatmış «Azərbaycan ədəbiyyatı tarixi» çoxcildliliyidir. Yeni çoxcildlik folklor yaradıcılığı da daxil olmaqla Azərbaycan ədəbiyyatı tarixinə müstəqillik dövrü işığında ən yeni baxışdır. Hər biri geniş, ön söz, qeyd, şərh və izahlarla nəşrə hazırlanan cildlər ədəbiyyatımızın sovetlər dövründəki nəşrlərindən bir sıra səbəblərlə bağlı kənarda qalmış ədəbi simaların, demokratik mətbuat orqanlarının fəaliyyətini əks etdirmək, eləcə də bir çox tarixi-ədəbi fakt, hadisə və təqdimatları dürüstləşdirmək baxımından yeniləşdirilmiş nəşrlər kimi diqqəti cəlb edir. Ədəbiyyat tarixi məsələlərinə həsr edilmiş bu cildlərdə ən önəmli cəhətlərdən biri odur ki, əlli ildən artıq bir dövr bundan əvvəl yazılmış üçcildlik ədəbiyyat tarixlərinin nəşrindən sonra təzə nəşrlərdə ən yeni elmi

nailiyyətlər öz əksini tapmış, folklor yaradıcılığı və klassik ədəbi irsin ən yeni tədqiqat istiqamətləri, mili ədəbiyyatımızda özünü göstərən ədəbi meillər, ədəbi cərəyanlar, ədəbi simalar haqqında daha mükəmməl oçerklər burada əksini tapmışdır.

XX əsr Azərbaycan ədəbiyyatı və demokratik mətbuatı, mühacirət ədəbiyyatı, onun aparıcı simalarının yaradıcılığının ədalətli təqdimatı da öz elmi səviyyəsi ilə seçilir. Hər yeni nəşr ədəbiyyat tariximizlə bağlı ənənələri layiqincə qoruyub saxladığı kimi, təzə nəşr də varisliyi mühafizə etməsi, onu yeni-yeni ənənələrlə zənginləşdirməsi baxımından yüksək dəyərləndirilməyə layiqdir.

Akademik Bəkir Nəbiyevin rəhbərliyi və ümumi redaktorluğu altında işıq üzü görmüş ikinci layihə isə yenə Ədəbiyyat İnstitutunda müəllif kollektivi tərəfindən nəşrə hazırlanmış «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» əsəridir. Bu yaxınlarda respublikanın Dövlət mükafatına layiq görülmüş əsərdə böyük milli öndər Heydər Əliyevin müxtəlif dövrlərdə ədəbiyyatımız və mədəniyyətimiz, klassik və müasir dövrün ədəbi simAları ilə bağlı irəli sürdüyü dəyərli fikirlər, ədəbiyyatımızı mövzu-məzmun, sənətkarlıq baxımından inkişaf etdirmək sahəsində qarşıda duran vəzifələr barədə dəyərli mülahizələri öz əksini tapmasıdır. Müxtəlif illərdə Azərbaycan ədəbiyyatının klassik və müasir ədəbi irsinin dünyada tanıdılmasında, tanınmış bir sıra klassiklərin və ədəbi simalarının geniş miqyaslı yubileylərinin keçirilməsində, ədəbiyyat və incəsənət xadimlərinin yüksək fəxri adlara layiq görülməsində böyük xidmətləri olan Heydər Əliyev həm də uzun illər ədəbiyyatımızın inkişafına və dəyərləndirilməsinə böyük qayğı göstərmişdir. Milli öndərin ədəbiyyatımız qarşısındakı unudulmaz xidmətləri təqdim edilən əsərdə öz geniş şərhini tapmışdır. Əsərin başqa bir məziyyəti isə Heydər Əliye-

vin ədəbiyyat və sənət məsələlərinə baxışlarının gələcək nəsillərə ilk dəfə kül halında təqdim edilməsidir.

Akademik Bəkir Nəbiyevin anadan olmasının səksən illiyi ərəfəsində ona fərəh gətirən daha bir layiqli layihə də işıq üzü görmüşdür. Bu da Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə alimin beş cildlik seçilmiş əsərlərinin çapdan çıxmasıdır. (Bax: Bəkir Nəbiyev «Seçilmiş əsərləri» beş cilddə, Çinar-Çap, Bakı, 2010). Bir faktı xatırlatmaq yerinə düşər ki, Bəkir müəllimin elmi yaradıcılığı çoxşaxəli və necə deyərlər çoxçeşidlidir. Bunlar içərisində müəlliffin müxtəlif illərdə ədəbi prosesin inkişafı ilə bağlı etdiyi çoxsaylı məruzələri, çıxışları, «Azərbaycan gəncləri» «Kommunist», «Ədəbiyyat və incəsənət», «Ədəbiyyat qəzeti» və başqa ədəbi nəşrlərdə, elmi məcmuələrdə, toplularda, nəşr etdirdiyi ədəbi-publisistik yazıları, kəskin qələmlə yazılmış ədəbi-tənqidi qeydləri, çoxsaylı resenziyaları, rəyləri oxuculara yaxşı tanışdır. Ancaq Bəkir müəllim bu dəyərli yazılar içərisindən ədəbiyiatşünaslığımızın, ədəbiyyat tarixi və ədəbi tənqidimizin ən aktual problemlərinə həsr edilmiş seçmə yazılarını ayırıb beş cildliyə daxil etmişdir. Nəfis şəkildə tərtib edilib səliqə ilə nəşr olunmuş hər bir cild görkəmli ədəbiyyatşünas alimlərin ön sözü və redaktəsi altında oxuculara təqdim olunmuşdur.

İlk cild professor İsrafil İsrafilovun yazdığı məzmunlu və səmimi ön sözlə başlayır: «Alimlər çiçəklərə bənzəyir, öz gözəlliyi, öz ətri var hər birinin. Təbiətlərində çiçək rayihələri, təxəyyüllərində çiçək zərfliyi yaşadan bu insanların düşüncələrində planetar fikirlər, üzlərində dünya ağrıları, çiyinlərində bəşəriyyətin yığın-yığın yükləri daşınır...

...Belə alim insanlardan birinin (fəxri adlarını, orden və medallarını qəsdən sadalamadığım) Bəkir Nəbiyevin işıq üzü görən beş cildliyinə onun bütün yaradıcılıq ömrü toplanmışdır...

...Birinci cildi vərəqləyirik, burada nələr yoxdur?! «Xalq mənəviyyatının güzgüsü» («Kitabi-Dədə Qorqud»), «Nizami və Gəncə», «Möcüzənin bayramı» (Yunis İmrə), «Nəsrəddin Tusinin şeir dünyası»...

...Müəllif mifoloji düşüncədən başlamış yazılı ədəbiyyatımızın, klassik poeziyamızın kütləvi nümunələri arasında arxayın əda ilə dolaşır, böyüklüyün qarşında vəcdə gəlir. Elmi təbinin hünəri ilə süzülən düşüncələrini səmimiyyətə bəyan edir» (s.3-4). Professor İ.İsrafilov daha sonra beşcildliyin hər bir cildində toplanan əsərlərin müxtəsər siyahısını verərək onları müəllifin çoxillik elmi fəaliyyətinin, qüdrətli yaradıcılıq kamalının fərəh gətirən, milli qürur doğuran nəticəsi kimi qiymətləndirərək yazır: «Bəkir müəllimin cildlərinin hər birinin mündəricatında verilən başlanğıc yazını (onu yaxşı tanıdığımız üçün deyə bilərik ki) düşünülmüş şəkildə sonrakı mövzuların obrazlı desək, qapısı kimi nəzərdə tutur. Belə ki, onun I cildin baş yazısını «Ədəbiyyat tarixçiliyinin atası» Firudin Köçərliyə, II cildi «Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı»na həsr etməsi, III cildi «Xəlil Rza Ulutürkün həyatı, mübarizəsi və ədəbi irsi» adlandırması, IV cildi Heydər Əliyev haqqında etüdlərlə başlaması, nəhayət V cilddə «Həyat və bədii həqiqət» məsələlərinin qaldırılması fikrimizcə, konseptual mahiyyət daşıyır».

Ədəbiyyat və sənət məsələlərinin bir çox aktual problemlərinə həsr edilmiş sonuncu cild professor Qəzənfər Paşayevin akademikin zəhmətinə verdiyi yüksək qiymətlə tamamlanır. Cilddə toplanmış müəllifin çiçək ətirli məruzə, çıxış, rəy, resenziya və xatirələrinə ətraflı şəkildə nəzər salan professor Q.Paşayevin haqlı olaraq sözünü belə tamamlayır: «...Zəmanəmizdə akademik Bəkir Nəbiyevin «Seçilmiş əsərləri» kimi kitablara böyük ehtiyac duyulur. Ən azından ona görə ki, yaxın keçmişimizdə görülmüş möhtəşəm işləri göz önünə gətirək, qiymətləndi-

rək, bir daha kimliyimiz, mədəniyyətimiz, mənəviyyatımız haqqında düşünək».

Bəkir Nəbiyevin bu layihəsi bütövlükdə XX əsr ədəbi-elmi nəzəri fikir tariximizə müəllifin müxtəlif zaman kəsimindən ədalətli və yüksək elmi nəzəri yanaşması kimi diqqəti cəlb edir.

Akademik Bəkir Nəbiyevin klassik ədəbi-mədəni irs, sovet dövrü ədəbiyyatı, ədəbi tənqidi fikrin M.Arif, Mir Cəlal, Cəfər Xəndan, Mirzə İbrahimov, Araz Dadaşzadə və onlarla başqa nümayəndələri haqda, eləcə də son dövrün modernist, postmodernist yaradıcılıqları barədə yeri gəldikcə söylədiyi fikirləri, müasir mərhələdə ədəbi prosesin düzgün istiqamətləndirilməsinə və klassik irsə ədalətli yanaşmalara istiqamət verən dəyərli mülahizələr kimi çox əhəmiyyətlidir.

Akademik Bəkir Nəbiyev bu gün XXI yüzilliyin ədəbiyyatşünaslığı və ədəbi tənqidinin ən mühüm problemlərini müəyyənləşdirən və istiqamətləndirən ustad qələm sahiblərindəndir. Bu baxımdan aliamin «Nəsrimiz bugün», «Yenidənqurma və poeziyamız», «Bədii tərcümənin bəzi problemləri», «Ədəbiyyat elmi, uğurlar, problemlər, perspektivlər», «Azərbaycan ədəbiyyat elmi müxacirətdə», «Ədəbiyyatda Anar fenomeni», «Ələsgər ətirli fikirlər», «İlyas Əfəndiyevin seçilmiş əsərlərinin üçcildliyi» və başqa yazıları dövrün ədəbi xülasəsini öyrənmək baxımından önəmlidir. O, sovet dövrü Azərbaycan ədəbiyyatının xalqın mədəni həyatı və tərəqqisində oynadığı tarixi rolu inkar etməyin, dövrün ayrı-ayrı ədəbi simalarına, eləcə də bütövlükdə yaradılmış zəngin bədii irsə arxa çevrməyin, zamanın idealoji tələblərinin yaradıcılıqla əks olunmasından çıxış edərək onları yamanlamağı əsassız hesab edir. Bir çox məruzə, çıxış və ədəbi tənqidi yazılarında sovetlər dövrünün onlarla qüdərtli şair və ediblərinin, dramaturqlarının yaratdıqları ədəbi nümunələrin Azərbaycanı dünyada necə şöhrətləndiyini xatırladır. Elə bu fikirlə-

rini dünyanın böyük şairlərindən biri olan Rəsul Rzanın anadan olmasının 100 illiyi münasibətilə yazdığı, yaxınlarda «Ədəbiyyat qəzeti»ndə çap etdirdiyi iri həcmli məqaləmində bir daha kəskinliyi ilə qoyur, sovet dövrü ədəbiyyatımızın dəyərləndirilməsi baxımından proqram xarakterli bu yazısında dünənin, bu günün və sabahın şairi olan Rəsul Rzanı Azərbaycan şeirində haqlı olaraq böyük poetik qüdrət sahibi kimi dəyərləndirərək onu bir daha şeirimizin novatorçu sənətkarı kimi təqdim edir, müəllif Rəsul Rzanın «Lenin» poemasından çıxış edərək şairin ədəbi irsi üzərinə kölgə salmaq istəyənlərə bir daha aydın cavab verir. Bəkir müəllim xatırladır ki, bir dəfə Süleyman Rüstəmin yaradıcılığı ilə bağlı məclisdə onu dövrünün böyük şairi adlandırdığı məclisdə iştirak edən prezident Heydər Əliyev onun fikitrlərini dəstəkləyərək sovet ədəbiyyatını yüksək dəyərləndirdiyini söyləyir və haqqlı olaraq göstərir ki, sovet dövrü ədəbiyyatımız barədə ulu öndərin həmin mülahizələri bu dövr ədəbiyyatımıza verilən ədalətli və ən yüksək elmi baxış idi.

Dünən istər klassik dövr sənətkarlarının, istərsə də XX əsr sovet dövrü Azərbaycan ədəbiyyatı yaradıcılarının ədəbiyyat tarixismizdəki yerinin toxunulmazlığının vacib olduğunu göstərən Bəkir Nəbiyev bu gün Rəsul Rzanın şəxsiyyəti və ədəbi irsi əsasında sovet dövrü ədəbiyyat xadimlərinin Azərbaycan mədəniyyəti tarixindəki xidmətlərini ehtiramla xatırlayır, onlara qarşı ünvanlanan hər cür ideoloji təhdidlərin, qınaqların əsassızlığını bir daha gündəmə gətirir.

Akademik Bəkir Nəbiyevin milli ədəbi, elmi-nəzəri fikrin inkişafındakı xidmətləri geniş və çoxcəhətlidir. Azərbaycan ədəbiyyatı, elmi və mədəniyyətinin azərbaycançılıq işığında dünyada tanıdılmasında bu fədakar alim dünən də, bu gün də daim öndə olmuş, vətəninə, xalqına xidmətin ən yüksək nümunəsini göstərmişdir. Azərbaycan elmi və mədəniyyətinin inkişafındakı

böyük xidmətləri hələ böyük milli öndər Heydər Əliyev tərəifndən yüksək qiymətləndirilərək, o, «Şöhrət» ordeni ilə təltif edilmiş, Elmlər Akademiyasının 60 illik yubiley mərasimində isə cənab prezident İlham Əliyev «İstiqlal» ordenini öz əli ilə onun yaxasına sancmışdır.

Anadan olmasının 80 illik yubileyi ərəfəsində Bəkir Nəbiyev zəhmətinin yeni bir fərəhini yaşamışdır. İşlədiyi institutun müəllif kollektivi ilə birlikdə həyata keçirdiyi layihə əsasında hazırladığı «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» əsərinə görə respublikanın Dövlət mükafatına layiq görülmüşdür. Akademikin ölkə başçısına və onun xanımına ünvanladığı səmimi minnətdarlığında isə təkcə özünün yox, həm də bütün Azərbaycan ziyalılarının səmimi arzuları əksini tapmışdı: «Bizim üçün xüsusi şərəf mənbəyidir ki, yüksək dövlət mükafatına layiq görülmüş kitabımız ulu öndər Heydər Əliyevin Azərbaycan ədəbiyyatı və mədəniyyəti qarşısındakı misilsiz xidmətlərinin şərhinə, təhlilinə, və dəyərləndirilməsinə həsr olunmuşdur. Ümumilli liderin dərya xidmətləri qarşısında damcı mənzərəsində olan əməyimizə verilən yüksək qiymət, şübhəsiz ki, bizi yeni yaradıcılıq uğurlarına ruhlandıracaqdır. Nizami adına Ədəbiyyat İnstitutunu təmsil edən biz müəlliflər həmişə özümüzü Heydər Əliyev qvardiyasının azərbaycançılıq alayında sıra nəfəri saymış və bununla fəxr etmişik. Onun arzu və əməllərinin bu gün hər sahədə gül-çiçək açıb – təzə bar verməsi, indiki çox mürəkkəb şəraitdə müstəqil dövlətimizin yeni, daha sanballı uğurlara qovuşması şəxsən Sizin həmişə xüsusi təmkinlə yeritdiyiniz müdrik daxili və xarici siyasətin nəticəsi kimi haqlı olaraq bütün dünyada etiraf edilir və təqdir olunur.

«Möhtərəm cənab Prezident!

Ölkəmiz və dünyamız üçün gərgin olan bir zamanda onlarla, yüzlərlə çox vacib təxirəsalınmaz işlərin arasında vaxt ayırıb,

elm, ədəbiyyat və incəsənətimizə qayğı göstərdiyiniz üçün, o cümlədən məni və istedadlı qələm yoldaşlarımı, müstəqil Azərbaycan Respublikasının yüksək Dövlət mükafatı ilə təltif etdiyiniz üçün Sizə hamımızın adından dərin minnətdarlığımızı bildirirəm».

Fevral ayının 13-də Ağdaş şəhərində səsləndirdiyim və tərəfinizdən rəğbətlə qarşılanan böyük arzumu bu gün bir daha təkrar edirəm: mən bütün varlığımla inanıram ki, Sizin uzaqgörən diplomatiyanız və parlaq əməlləriniz nəticəsində Qarabağ erməni işğalından tamamilə azad ediləcək və 65 il bundan əvvəl olduğu kimi, yenə də mən indi artıq 80 yaşlı qocaman bir diktor kimi xoş xəbəri efir və ekran vasitəsilə doğma elimə-obama çatdıracağam, inşallah.

Bir daha sağ olun möhtərəm, cənab Prezident!»

Şübhəsiz ki, bu istək müdrik elm xadiminin həm özünün, həm də xalqı adından Prezidentinə çatdırmaq itədiyi ümumxalq istəyi və arzusudur. Çünki bütün xalq bu günü səbirsizliklə gözləməkdədir.

Akademik Bəkir Nəbiyevin yaxınlaşmaqda olan 80 illik yubileyi isə təkcə onun yox, bütün ölkə ziyalılarının bayramıdır. Bu münasibətlə əziz Bəkir müəllimi təbrik edir, ona möhkəm cansağlığı, uzun illər yeni-yeni yaradıcılıq uğurlarının fərəhini yaşamağı arzu edirik.